بسم الله الرحمن الرحيم

# ÜMRƏ BƏLƏDÇİSİ

Bakı – 2024

Ümrə bələdçisi
Bakı  2024, 80 səh.

**Redaksiya heyəti**:
Elşən Şəkərov
Ramin Yavər oğlu
Ramin İsbarxanlı
Vüsalə Lətif qızı

Bu kitab Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə
çap edilmişdir. (**3-32/2-201/2024  13 fevral 2024-cü il**)

**telegram/heccveumre**

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَـٰنِ ٱلرَّحِيمِ

# Ön söz

Həmd olsun aləmlərin Rəbbi olan Allaha! Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Ümrə ziyarəti Uca Allaha yaxınlaşmaq üçün edilən əzəmətli ibadətlərdən biridir. Uca Allah buyurur: **"Allah üçün həcc və ümrəni tam yerinə yetirin"** (əl-Bəqərə, 196). Sözsüz ki, hər bir müsəlman etdiyi ibadətlərin Allah dərgahında qəbul olunmasını istəyir. İbadətin Allah dərgahında qəbul olunması üçün iki şərt vardır:

**Birincisi:** İbadət xalis Allah üçün yerinə yetirilməlidir.

**İkincisi:** İbadət Allahın Öz Peyğəmbərinə ﷺ buyurduğu şəkildə yerinə yetirilməlidir.

Əgər bu iki şərtdən biri olmazsa, bu ibadət Allah tərəfindən qəbul olunmaz, rədd olunar. Əgər ibadət Allah üçün olmazsa, yəni ibadət Allahdan başqası üçün edilərsə və ya riyakarlıqla (özünü insanlara göstərmək məqsədilə) yerinə yetirilərsə, bu ibadət Allah tərəfindən qəbul olunmaz, çünki bu ibadətdə iki şərtdən birincisi – ixlas yoxdur.

Həmçinin ibadət Peyğəmbərin ﷺ buyurduğu şəkildə olmalıdır. Uca Allah buyurur: **"Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir"** (əl-Əhzab, 21). Əgər ibadət, Allah üçün olsa belə, Peyğəmbərin ﷺ buyurduğu şəkildə yerinə yetirilməzsə, bu ibadət Allah tərəfindən qəbul olunmaz və bu əməl öz sahibini Allaha

yaxınlaşdırmaq əvəzinə Ondan daha da uzaqlaşdırar. Yuxarıda qeyd etdiyimiz bu iki şərt Uca Allahın bu ayəsində cəm olunmuşdur: **“De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!”** (əl-Kəhf, 110). Ayədə **“yaxşı işlər görsün”** deyildikdə, Peyğəmbərin ﷺ sünnəsinə uyğun əməllər nəzərdə tutulur. Bu, ikinci şərtə işarədir. “**Rəbbinə heç kəsi şərik qoşmasın!”** Bu isə birinci şərtə işarədir.

Əziz oxucu!

Əlinizdə olan bu kitabça ümrə ibadətindən bəhs edir. Kitabçada Quran ayələrinə və Səhih hədilərə əsaslanaraq ümrə ziyarətini yerinə yetirməyin qaydası, ardınca isə Mədinə şəhərində ziyarət olunan yerlər barədə qısa məlumat verilmişdir. Ümrə ibadətini daha aydın başa salmaq üçün şəkillərdən istifadə edilmişdir.

Kitabçanın sonunda Quran və Səhih hədislərdə keçən müstəcəb dualar qeyd olunmuşdur. Bu dualarla yanaşı hər bir zəvvardan xalqımızın əmin-amanlığı və vətənimizin keşiyində duran əsgərlərimiz üçün dua etməyi unutmamağı rica edirik. Uca Allah xalqımızı və bütün müsəlmanları qorusun! Heç bir şəriki və bənzəri olmayan Uca Rəbbimizdən bu kitabçanı xalqımız və müsəlmanlar üçün faydalı etməsini diləyirik!

*Redaksiya heyəti*
*quranoxuyuruq@gmail.com*

## Ümrə ziyarətini yerinə yetirməyin fəziləti

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: "Ümrə ziyarəti, növbəti **ümrəyədək arada olan kiçik günahlar üçün kəffarədir (kiçik günahları silir). Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir"**.[1]

Abdullah ibn Məsud رضي الله عنه rəvayət edir ki, Allah Elçisi ﷺ buyurmuşdur: **"Həcc və ümrəni ardıcıl edin, çünki körük dəmirin, qızılın və gümüşün pasını apardığı kimi onlar da kasıblığı və günahları aparır. Qəbul olunmuş həccin mükafatı isə ancaq Cənnətdir"**.[2]

İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: **"Allah yolunda döyüşən, həcc edən və ümrə edən Allahın nümayəndələridirlər. Allah onları dəvət etmiş, onlar da Allahın dəvətini qəbul etmişlər. Onlar Allahdan istəmişlər, Allah da onların istədiklərini vermişdir"**.[3]

Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: **"Həcc edən və ümrə edənlər Allahın nümayəndələridirlər. Əgər Allaha dua etsələr Allah onların duasını qəbul edər, Allahdan bağışlanma istəsələr Allah onları bağışlar"**.[4]

[1] əl-Buxari, 1773.
[2] ət-Tirmizi, 810, 815.
[3] İbn Məcə, 2884, 3005.
[4] İbn Məcə, 2892.

Rəvayət edilir ki, bir dəfə Aişə رضي الله عنها Peyğəmbərdən ﷺ soruşdu: "Ey Allahın Elçisi! Qadınlara cihad etmək vacibdirmi?" Peyğəmbər ﷺ buyurdu: "Bəli, onlara döyüş olmayan cihad həcc və ümrə ziyarətləri vacibdir".[5]

## Ramazan ayında edilən ümrənin fəziləti

Əbu Məqil رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ buyurmuşdur: **"Ramazan ayında ümrə etmək həccə bərabərdir"**.[6]

## Kəbəni təvaf etməyin fəziləti

Rəvayət edilir ki, Abdullah ibn Ömər رضي الله عنهما demişdir: "Mən Allah Elçisinin ﷺ belə buyurduğunu eşitdim: **"Kim Kəbəni təvaf edər və iki rükət namaz qılarsa, bir köləni azad etmiş kimi savab qazanar"**.[7]

Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi ﷺ buyurmuşdur: **"Kim bu Evi (Kəbəni) sayaraq yeddi dəfə tavaf edərsə, sanki bir qul azad etmişdir"**. Həmçinin, buyurmuşdur: **"Təvaf edən hər dəfə ayağını qaldırdıqda və yerə qoyduqda, Allah buna görə onun bir günahını silir və bir savab yazır"**.[8]

## Peyğəmbər ﷺ məscidində və Məscidul-Haramda qılınan namazın fəziləti

Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi ﷺ buyurmuşdur: **"Mənim bu məscidimdə qılınan namaz Məscidul-Həram istisna olmaqla başqa məscidlərdə**

[5] İbn Məcə, 2901.
[6] İbn Məcə, 2993, 3107.
[7] İbn Məcə, 2956, 3069.
[8] əl-Hakim, 1799.

**qılınan min namazdan daha fəzilətlidir. Məscidul-Haramda qılınan namaz isə digər məscidlərdə qılınan yüz min namazdan daha xeyirlidir”.**[9]

**Qeyd:** Doğru rəyə görə “Məscidul-Haram” dedikdə bütün haram ərazisi nəzərdə tutulur. Bu fəzilət bütün namazlara, həm nafilə namazlara, həm də fərz namazlara aiddir.

## Səfər duası

Səfərə çıxan insanın miniyə minərkən aşağıdakı duanı oxuması müstəhəbdir:

اَللَّهُ أَكْبَرُ، اَللَّهُ أَكْبَرُ، اَللَّهُ أَكْبَرُ،

﴿ سُبۡحَٰنَ ٱلَّذِي سَخَّرَ لَنَا هَٰذَا وَمَا كُنَّا لَهُۥ مُقۡرِنِينَ ﴾

اَللَّهُمَّ إِنَّا نَسْأَلُكَ فِي سَفَرِنَا هَذَا الْبِرَّ وَالتَّقْوَى، وَمِنَ الْعَمَلِ مَا تَرْضَى، اللَّهُمَّ هَوِّنْ عَلَيْنَا سَفَرَنَا هَذَا وَاطْوِ عَنَّا بُعْدَهُ، اللَّهُمَّ أَنْتَ الصَّاحِبُ فِي السَّفَرِ، وَالْخَلِيفَةُ فِي الأَهْلِ، اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وَعْثَاءِ السَّفَرِ، وَكَآبَةِ الْمَنْظَرِ، وَسُوءِ الْمُنْقَلَبِ فِي الْمَالِ وَالْأَهْلِ

[Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər. Subhə:nəl-ləzi səxxara lənə hə:zə və mə: kunnə ləhu muqrinin. Və innə ilə Rabbinə ləmunqalibun. Alla:hummə innə nəs’əlukə fi səfərinə hə:zəl-birra vət-təqvə: və minəl aməli mə: tərda. Alla:hummə həvvin aleynə səfəranə

[9] Əhməd, 15306.

hə:zə vatvi annə bu'dəhu. Alla:hummə əntəs-sa:hibu fis-səfəri vəl-xali:fətu fil-əhli. Alla:hummə inni əu:zu bikə min va'sais-səfəri və kə:bətil-mənzari və suil-munqaləbi fil-mə:li vəl-əhl].

**"Allah ən Böyükdür, Allah ən Böyükdür, Allah ən Böyükdür. "Bunu (minmək üşün) bizə ram edən Allah pak və müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq". Allahım! Bu səfərimizdə Səndən yaxşılıq, Allah qorxusu və razı qalacağın əməl diləyirik. Allahım! Bu səfərimizi bizim üçün rahat et və onun uzaqlığını bizə yaxın et. Allahım! Səfərdə yoldaşımız, ailəmizdə isə himayədarımız Sənsən. Allahım! Səfərin ağırlığından, məyus edən mənzərədən, qayıtdıqda malda və ailədə xoşagəlməz dəyişiklik görməkdən Sənə sığınıram".[10]**

- Səfərə çıxan insan səfər əsnasında Allahı zikr etməyi, Ondan bağışlanma diləməyi, Ona dua etməyi, Quran oxumağı və Quranı tədəbbür etməyi çoxaltmalıdır. Belə ki, səfərdə edilən dua məqbul duadır. Ənəs ibn Məlik ﵁ rəvayət edir ki, Allah Elçisi ﷺ demişdir: "Üç dua rədd olunmur; valideynin övladı üçün etdiyi dua, oruc tutanın duası və müsafirin duası".[11]
- Səfərə çıxan insan dilini qeybətdən, yalandan və s. bu kimi günahlardan qorumalı, zarafatda həddi aşmamalıdır.

---

[10] Muslim, 2392, 3339.

[11] əl-Beyhəqi "Sunənul-Kubra", 6619; əd-Diya "Əhədisul-Muxtəra", 2057. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 3032.

- Səfərə çıxan insan yoldaşlarına və ətrafdakılara əziyyət verən əməllərdən çəkinməli, bacardığı qədər yaxşılığı əmr edib, pis əməllərdən çəkindirməli, hamıya qarşı gözəl əxlaq nümayiş etdirməlidir.

## Ehrama girməmişdən əvvəl yerinə yetirilən əməllər

Ehrama girmək – həcc və ya ümrə ziyarətini yerinə yetirməyə niyyət etmək və ziyarət əsnasında qadağan edilmiş əməllərdən çəkinməkdir.

Ehrama girməzdən əvvəl aşağıdakı əməlləri yerinə yetirmək müstəhəbdir:

1. Qüsl etmək;

2. Dırnaqları tutmaq, bığları qısaltmaq, qoltuqaltı və övrət yerlərini təmizləmək;

3. Kişilər üçün ətirdən istifadə etmək. Kişilər bədənə, saqqala və saça ətir vura bilər. Ehram paltarına isə ətir vurmaq qadağandır. Ehrama girdikdən sonra bədəndən və ya saqqaldan ətir qoxusunun gəlməsi icazəlidir.

4. Kişilər xüsusi “ehram paltarı” geyinməlidirlər. “Ehram paltarı” izar (alt hissə) və rida (üst hissə) olmaqla iki hissədən ibarətdir. Bunun ağ rəngdə olması bəyənilir. (**Şəkil 1**)

*Şəkil 1*



Qadınlar isə hicabın şərtlərini pozmadan istənilən paltarı geyinə bilərlər.

Bu əməllər "Miqat" adlanan əraziyə çatana qədər yerinə yetirilməlidir.

## Ehrama girmək – Miqat

Ümrə etmək məqsədilə Məkkəyə gedən insanın, fərq etməz, istər təyyarə ilə, istərsə də digər nəqliyyat vasitəsi ilə getmiş olsun, ehramsız və niyyət etmədən Miqatı keçməsi icazəli deyil. "Miqat" dedikdə, ehrama girmək (niyyət etmək) üçün təyin edilmiş məntəqə nəzərdə tutulur. Miqata çatdıqda kişilər əyinlərində olan bütün paltarları çıxarıb "ehram paltarı" geyinməli və ümrə üçün niyyət etməlidirlər. Qadınlar üçün isə xüsusi ehram geyimi yoxdur. Qadının əynində olan geyim onun üçün "ehram paltarı" sayılır. Qadın istənilən rəngdə paltar geyinə bilər, lakin bu paltar çox dar olmamalı, habelə kişilərin geyiminə bənzəməməlidir. Qadınlara ehramda olarkən niqab (üz örtüyü) və əlcək geyinmək qadağandır. Qadın üzünü və əllərini niqab və əlcək istifadə etmədən örtə bilər.

**Qeyd 1:** Təyyarə ilə birbaşa Ciddə şəhərinə gedənlər "Miqat" ərazisini təyyarədə olarkən keçdikləri üçün "Miqat" ərazisinə çatmağa az qalmış niyyət etməlidirlər.

**Qeyd 2:** Əgər qadın miqata çatdıqda heyz olarsa, insanlarla birlikdə niyyət edir, sonra Kəbəni təvaf etmək istisna olmaqla, ümrə ziyarətinin bütün əməllərini yerinə yetirir. Heyzdən təmizləndikdən sonra isə qüsl edib Kəbəni təvaf edir və ümrəni tamamlamış olur. Qadınlara

heyzi müvəqqəti dayandırmaq və ya gecikdirmək üçün müəyyən dərmanlardan istifadə etmək icazəlidir.

Miqata çatdıqda niyyət edilir. Niyyət edərkən aşağıdakı zikri səslə demək lazımdır:

لَبَّيْكَ (ٱللَّهُمَّ) عُمْرَةً

Ləbbəykə (Alla:hummə) umratən!]

**(Allahım!) Ümrə ziyarətini yerinə yetirmək üçün hüzurundayam!**

**Qeyd 1:** Əgər başqasının yerinə ümrə edilirsə, onda onun adından niyyət edilir və aşağıdakı zikr səslə deyilir:

لَبَّيْكَ (ٱللَّهُمَّ) عُمْرَةً عَنْ ...

[Ləbbəykə (Alla:hummə) umratən ən...(adını çəkir)]

**Allahım! Filankəsin (adını çəkir) əvəzinə ümrə ziyarətini yerinə yetirmək üçün hüzurundayam!**

## Niyyəti şərtlə etmək və onun faydası

Əgər ümrə etmək istəyən şəxs xəstəlik və ya başqa bir səbəbdən ümrəni tamamlaya bilməyəcəyindən qorxarsa niyyət etdikdən sonra belə deməsi icazəlidir:

فَإِنْ حَبَسَنِي حَابِسٌ فَمَحِلِّي حَيْثُ حَبَسْتَنِي

[Fə in həbəsəni hə:bisun fəməhilli heysu həbəstəni]

**"Allahım! Əgər ümrəni yerinə yetirməyə bir maneə olarsa, həmin yer ehramdan çıxacağım yerdir".**

**Faydası:** Şərtlə niyyət edən şəxs müəyyən səbəbdən ümrəni tamamlaya bilməzsə, fidyə vermədən, qurban kəsmədən və saçını qırxmadan ehramdan çıxır. Halbuki, şərtlə niyyət etməyən kəs müəyyən səbəbdən ümrəni (və ya həcci) tamamlaya bilməzsə fidyə verməli (qurban kəsməli) və saçını qırxmalıdır.

**Niyyət etdikdən sonra təlbiyə duası deyilir:**

لَبَّيْكَ ٱللَّهُمَّ لَبَّيْكَ. لَبَّيْكَ لَا شَرِيكَ لَكَ لَبَّيْكَ
إِنَّ ٱلْحَمْدَ وَٱلنِّعْمَةَ لَكَ وَٱلْمُلْكَ لَا شَرِيكَ لَكَ

[Ləbbəykəlla:hummə ləbbəyk, ləbbəykə lə: şəri:kə ləkə
ləbbəyk, innəl-həmdə vən-ni’mətə,
ləkə vəl-mulk, lə: şəri:kə lək!]

**“Hüzurundayam, Allahım hüzurundayam! Hüzurundayam, Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir, nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur!”**

Bu duanı (təlbiyəni) Məkkəyə çatana kimi (Kəbəni görənə qədər, kişilərin uca səslə, qadınların isə yavaş səslə) təkrar-təkrar demək bəyənilir.

Ümrə edən niyyət etdikdən sonra artıq ehrama girmiş hesab olunur və ehramda olarkən qadağan olunan əməllərdən çəkinməlidir.

## Ehramda olarkən qadağan olunan əməllər

1. Kişilərə başı örtmək; istənilən baş örtüyü qadağandır Papaq, təkkə, dəsmal, ehram palatrı və s.
2. Qadınlara niqab (üz örtüyü) taxmaq və əlcək geyinmək; (Lakin yad kişilərlin arasından keçdiyi zaman üzünü örtə bilər).
3. Kişilərə "ehram paltarından" əlavə paltar geyinmək; (köynək, şalvar, corab, əlcək, xuff, alt paltarı və.s)
4. Səbəbsiz yerə bədənin hər hansı bir hissəsindən tük qoparmaq və ya saçı kəsmək;
5. Əl və ya ayaq dırnaqlarını səbəbsiz yerə tutmaq;
6. Qəsdən "ehram paltarına" və bədənə ətir vurmaq;
7. Nikah kəsdirmək və ya başqası üçün nigah kəsmək;
8. Cinsi yaxınlıq və ya ona aparan əməllər (öpmək, qucaqlamaq və s.) etmək;
9. Ov ovlamaq;

**Qeyd:** Yuxarıda qeyd edilən əməllərdən hər hansı birini unudaraq və ya hökmünü bilmədiyi üçün edən günah qazanmır və kəffarə ödəmir. Qadağan olunan əməli xatırlayan kimi və ya hökmünü bilən kimi dərhal tərk edir.

## Ehramda olarkən icazə verilən əməllər

1. Sərinləmək üçün çimmək (saçlarını ehtiyatla ovuşdurmalı);
2. Sərinləmək üçün çətirdən istifadə etmək (başa birləşməmək şərti ilə);
3. Qol saatı taxmaq;
4. Eynək taxmaq;
5. Ehramın alt hissəsini bərkitmək üçün bel kəmərindən istifadə etmək;
6. Bel çantasından istifadə etmək;
8. Ehram paltarını düyünləmək yaxud sancaqla bağlamaq;
9. Ehramın cırılmış yerlərini tikmək;
10. Ehram paltarını çirkdən və s. təmizləmək üçün yumaq;
11. Ehram paltarını dəyişmək;
12. Çalağan, əqrəb, qarğa, siçan, quduz it və ilan kimi zərərli heyvanları öldürmək;
13. Qan aldırmaq (hicama).

# Məkkə şəhəri – Təvaf

Ümrə edən Məkkəyə çatdıqda gedib Kəbəni təvaf edir. Təvaf dedikdə, Kəbənin ətrafında ibadət məqsədilə Qara daş yerləşən küncdən başlayaraq yeddi dəfə dövrə vurmaq nəzərdə tutulur. **(Şəkil 2)**

*Şəkil 2*




Təvafa başlamazdan əvvəl kişilərə ehram paltarının sağ tərəfini sağ qolun altına keçirib sağ çiyni açıq saxlamaq müstəhəbdir. **(Şəkil 3)** Bu hal təvafın sonuna qədər davam edir. Həmçinin kişilərə ilk üç təvafı iti addımlarla, yəni sürətli yerişlə yerimək müstəhəbdir. Əgər izdiham səbəbilə sürətli yerimək mümkün olmasa adi yerişlə yeriyir.

*Şəkil 3*



- Təvaf edərkən dəstəmazlı olmaq şərtdir.
- Təvafa Qara daş yerləşən küncdən başlanılır.

Ümrə edən əli ilə Qara daşa işarə edib “Allahu Əkbər” və ya “Bismilləh Allahu Əkbər” deyərək təvafa başlayır. Kəbəni sol tərəfdə tutaraq onun ətrafında dövrə vurur. Dövrəni başa vurub təkrar Qara daşa çatdıqda “Allahu Əkbər” deyib növbəti dövrəyə başlayır. Beləcə, yeddi dəfə dövrə vuraraq təvafı tamamlayır. Təvaf zamanı çoxlu dua və zikr etmək müstəhəbdir. Təvaf əsnasında dua edərkən əllər qaldırılmır.

- Təvaf edərkən Yəmən küncünə gəlib çatdıqda Qara daşa çatana qədər aşağıdakı duanı təkrar-təkrar oxumaq müstəhəbdir. **(Şəkil 4)**

رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ

[Rabbənə: ə:tinə: fid-dunyə: həsənətən və fil-ə:xirati həsənətən və qinə: azə:bən-nə:r!]

**“Ey Rəbbimiz! Bizə dünyada da yaxşılıq (gözəl nemətlər) ver, axirətdə də yaxşılıq (Cənnət) ver və bizi Cəhənnəm əzabından qoru!”**

- Qara daş olan küncə çatdıqda artıq birinci dövrə tamamlanmış olur. Yerdə qalan altı dövrə də eyni şəkildə tamamlanır. Ümumilikdə təvaf yeddi dövrədən ibarətdir.

Yeddinci dövrədə təvafı tamamladıqda, yəni Qara daşa çatdıqda “Allahu Əkbər” deyilmir.

Təvaf edərkən “Hicr” adlanan yarımdairəvi çox hündür olmayan divarla Kəbə arasından keçmək olmaz. **(Şəkil 5)**

*Şəkil 4*




*Şəkil 5*



## Məqami-İbrahim

Ümrə edən təvafı (yeddi dövrəni) tamamladıqdan sonra ehram paltarını çiyinlərinə ataraq Məqami-İbrahimə (İbrahim məqamına) yaxınlaşır. **(Şəkil 6)**

*Şəkil 6*



İmkan olsa Məqami-İbrahimin arxasında iki rükət namaz qılır **(Şəkil 7)**. İzdiham səbəbilə həmin yerdə namaz qıla bilməsə məscidin istənilən yerində bu niyyətlə namaz qıla bilər. Bu namazın birinci rükətində "əl-Kəfirun", ikinci rükətində isə "əl-İxlas" surələrini oxumaq müstəhəbdir. Namaz qılarkən təvaf edənlərin yolunu kəsib onlara əziyyət vermək olmaz.

*Şəkil 7*



Məqami-İbrahimin arxasında namaz qılıb qurtaradıqdan sonra Zəm-zəm suyundan içmək və bu sudan başa tökmək müstəhəbdir.

## Səfa və Mərva dağları arasında "səy" etmək

Ümrə edən Məqami-İbrahimin arxasında namazı bitirdikdən sonra Səfa və Mərva dağları arasında yeddi dəfə səy edir. "Səy" dedikdə – Səfa və Mərva dağları arasında getmək nəzərdə tutulur. **(Şəkil 8)** Səy Səfa dağından başlayır və Mərva dağında tamamlanır. Səfadan başlayıb Mərvada tamamlanan gediş bir səy sayılır. Mərvadan Səfaya qayıdış artıq ikinci səydir. Beləcə yeddinci səy Mərvada tamamlanır.

*Şəkil 8 "Səy"*




İlk səyi yerinə yetirmək üçün Səfa dağına yaxınlaşdıqda aşağıdakı zikr oxunur:

إِنَّ الصَّفَا وَالْمَرْوَةَ مِنْ شَعَائِرِ ٱللَّهِ

[İnnəs-safə: vəl-mərvətə min şəa:irillə:h]

**Həqiqətən, Safə və Mərvə Allahın nişanələrindəndir!**

أَبْدَأُ بِمَا بَدَأَ ٱللَّهُ بِهِ

[Əbdəu bimə: bədəəlla:hu bihi!]

**Allah (ayədə) nə ilə başlamışsa, mən də onunla başlayıram!**

Bu zikr yalnız bir dəfə Səfa dağına yaxınlaşdıqda oxunur.

Sonra Səfa dağına qalxır və üzü Kəbəyə tərəf dayanaraq əlləri qaldırıb aşağıdakı duanı oxuyur:

اَللَّهُ أَكْبَرُ، اَللَّهُ أَكْبَرُ، اَللَّهُ أَكْبَرُ
لَا إِلَهَ إِلَّا ٱللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، لَهُ ٱلْمُلْكُ وَلَهُ ٱلْحَمْدُ
وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ، لَا إِلَهَ إِلَّا ٱللَّهُ وَحْدَهُ، أَنْجَزَ
وَعْدَهُ، وَنَصَرَ عَبْدَهُ، وَهَزَمَ ٱلْأَحْزَابَ وَحْدَهُ

[Allahu Əkbər, Allahu Əkbər, Allahu Əkbər.

Lə: ilə:hə illəlla:hu vahdəhu lə: şəri:kə ləhu, ləhul-mulku və ləhul-həmdu və huvə alə: kulli şey in qadi:r. Lə: ilə:hə illəlla:hu vahdəhu, əncəzə va›dəhu, və nəsara abdəhu və həzəməl-əhzə:bə vahdəhu]

**"Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir, Onun şəriki yoxdur! Mülk Onundur və həmd Onadır! O hər şeyə Qadirdir! Allahdan başqa ibadətə layiq məbud yoxdur, O təkdir! Allah vədini yerinə yetirdi, quluna kömək etdi və (düşmənlərdən olan) dəstələri tək Özü məğlub etdi!"**

Bu zikri oxuyub qurtardıqdan sonra əllər qaldırılmış vəziyyətdə dünya və axirət xeyirlərini cəm edən istənilən duanı etmək olar. Bu zikr üç dəfə oxunur və hər dəfə zikrdən sonra dua edilir.

Sonra Səfadan enib Mərvaya tərəf gedir. Mərvaya tərəf getdikdə qarşıya çıxan yaşıl xəttlər arasında kişilərin qaçmağı müstəhəbdir. **(Şəkil 9)** Bu, qadınlara aid deyil. Yaşıl xəttlər bitdikdən sonra Məryava qədər adi yerişlə gedilir. Məryava gəlib çatdıqda Səfada deyilən zikr və dua eynilə burda da təkrar edilir. Bununla artıq bir səy tamamlanmış olur.

*Şəkil 9*



Mərva dağında dua etdikdən sonra Səfa dağına gedilir. Yenə kişilər yaşıl xəttlər olan ərazini sonuna qədər qaçır.

Yaşıl xətt bitdikdən sonra Səfaya qədər adi yerişlə gedilir. Səfaya gəlib çatdıqda artıq ikinci səy tamamlanmış olur. Beləcə, eyni qaydada yeddi dəfə səy olunur.

Səy əsnasında (Təfvafda olduğu kimi) çoxlu dua və zikr etmək lazımdır. Bu zaman dua edərkən əllər qaldırılmır.

**Qeyd 1:** Səy Səfada başlayır Mərvada tamamlanır. Yeddinci səy bitdikdən sonra zikr və dua edilmir.

**Qeyd 2:** Səy edərkən dəstəmazlı olmaq şərt deyil, müstəhəbdir.

Səy bitdikdən sonra kişilər saçlarını qırxmaq və ya qısaltmaqla ehramdan çıxmış sayılırlar. Kişilər üçün saçı qırxmaq daha savabdır. Qadınlar isə saçlarının ucundan 1-2 sm qısaltmaqla ehramdan çıxırlar.

**Diqqət:** Kişilər saçlarını hər tərəfdən eyni miqdarda götürməklə qısaltmalıdırlar. Bəzi kişi zəvvarlar qayçı ilə saçlarını bir neçə (3-5) yerdən götürməklə ehramdan çıxdıqlarını sanırlar. Halbuki, doğru olan rəyə görə, belə etmək düzgün deyil. Doğru olan budur ki, kişilərdə saç hər yerdən götürülməlidir və yalnılz bundan sonra ehramdan çıxmış sayılırlar.

Saçı qırxdıqdan (kişilər) və ya qısaltdıqdan sonra ümrə ziyarəti tamamlanır. Bundan sonra ehramdan çıxıb istənilən paltarı geyinmək və ehramda olarkən qadağan olan əməlləri etmək icazəlidir.

## Mədinə şəhərinin fəziləti

Peyğəmbərimiz ﷺ Mədinə şəhərini "Taybətət-Tayyibə" (Yaxşıların yaxşısı) adlandırmışdır. Mədinə vəhyin nazil olduğu, Cəbrailin Allah Elçisinə ﷺ vəhy gətirdiyi şəhərdir. Mədinə imanın qayıdacağı və sabit qalacağı yerdir. Mədinə mühacir və ənsarların[12] görüşdüyü yerdir.

Mədinə müsəlmanların hicrət və sığınacaq yeri olmuşdur. Bu şəhər müsəlmanların ilk paytaxtı olmuşdur. İslama dəvət də məhz bu şəhərdən yayılmışdır. Peyğəmbər ﷺ buraya köçmüş, ömrünün son illərini burada yaşamış, burada vəfat etmiş və burada da dəfn olunmuşdur. Bu mübarək şəhəri Allah şərəfli, fəzilətli etmiş və Məkkədən sonra ən xeyirli yer etmişdir.

Uca Allah Məkkə şəhərini haram ərazi, əmin-aman yurd etdiyi kimi, Mədinəni də haram, (toxunulmaz) əmin-aman yurdu etmişdir. Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, İbrahim Allahın Evinin (Məkkəni) haram ərazi olduğunu elan etmış və oranı əmin-aman bir yer olduğunu bildirmişdir. Mən də (Allahın əmri ilə) Mədinədəki (şərq və qərbində yerləşən) iki qara daşlı ərazinin arasını haram ərazi elan edirəm. Orada olan ağacları kəsmək və heyvanları ovlamaq qadağandır"**.[13]

---

[12] Mühacirlər – Məkkədən Mədinəyə köç edən səhabələrdir. Ənsarlar isə Mədinə əhlindən olub mühacirlərə arxa-dayaq olan, yardım edən səhabələrdir.

[13] Muslim, 2425, 3383.

Peyğəmbər ﷺ bu şəhərin bərəkətli olması üçün dua edərək demişdir: **“Allahım, bizim məhsulumuza bərəkət ver, bizim şəhərimizə (Mədinəyə) bərəkət ver, ölçümüzə bərəkət ver, ovucumuza bərəkət ver”**.[14]

Mədinənin fəzilətlərindən biri də budur ki, bu şəhərə vəba xəstəliyi və Dəccal daxil olmayacaq. Bu barədə Allah Elçisi ﷺ belə demişdir: “Mədinənin yollarında mələklər vardır. Oraya nə taun (vəba) xəstəliyi, nə də Dəccal daxil ola bilməyəcək”.[15]

Kəbənin yerləşdiyi məscid və Mədinədəki Peyğəmbər ﷺ məscidi nə üçün “Məscidul-Haram” adlanır?

**Cavab:** Hər iki məscid “Haram” ərazisində yerləşdiyinə görə belə adlanır. “Haram” deyildikdə, Məkkə və Mədinədə Allah tərəfindən müəyyən edilmiş sərhəd daxilində yerləşən ərazi nəzərdə tutulur. Bu ərazini Peyğəmbərimiz ﷺ bizə bildirmiş və onun sərhədlərinə üzərində “Haram ərazinin başlanğıcı” yazılmış hündür dirəklərdən ibarət nişanələr qoyulmuşdur. **(Şəkil 10)**. Bu ərazinin “Haram” adlanmasına gəlincə, hədisdə qeyd edildiyi kimi, bu ərazidə ov ovlamaq, ağacları kəsmək, itmiş əşyanı götürmək (yalnız sahibini tapıb qaytarmaq məqsədilə götürmək icazəlidir) haramdır. Habelə bu ərazidə döyüşmək qadağandır.

[14] Muslim, 3400.
[15] əl-Buxari, 1880; Muslim, 3350.

*Şəkil 10  Haram ərazinin başlanğıcı*



## Mədinədə ziyarət olunan yerlər

1. Peyğəmbər ﷺ məscidi;
2. Peyğəmbərin ﷺ və onun iki səhabəsi Əbu Bəkr və Ömərin رضي الله عنهما qəbirləri;
3. Quba məscidi;
4. Bəqi qəbirstanlığı;
5. Uhud şəhidlərinin dəfn olunduğu qəbiristanlıq.

## Peyğəmbər ﷺ məscidi necə ziyarət edilir?

Mədinə şəhərinə gələn zəvvar ilk növbədə Peyğəmbər ﷺ məscidini ziyarət etməyi və bu məsciddə namaz qılmağı niyyət etməlidir. **(Şəkil 11)** Allah Elçisi ﷺ bu xüsusda belə demişdir: "Üç məsciddən başqa heç bir yerə (ibadət məqsədi ilə) səfər etmək olmaz. Bu üç məscid – Məscidülhəram[16], Peyğəmbər ﷺ məscidi və Məscidüləqsadır[17]".[18] Peyğəmbər ﷺ məscidində qılınan hər hansı bir namaz digər yerlərdə qılınan namazdan min dəfə daha xeyirlidir. Peyğəmbər ﷺ bu xüsusda belə demişdir: "Mənim bu məscidimdə qılınan (hər hansı bir) namaz Məscidülhəram istisna olmaqla, digər məscidlərdə qılınan min namazdan daha yaxşıdır (savabdır)"[19].

---

[16] Məkkədə yerləşən Allahın müqəddəs Evi – Kəbə olan məscid.

[17] Yerusəlimdə yerləşən və zəvvarların ziyarət etməsinə icazə verilən müqəddəs ziyarətgahdır. Bu məsciddə qılınan namaz Məkkədəki müqəddəs məscid və Mədinədəki Muhəmməd Peyğəmbərin ﷺ məscidi istisna olmaqla, başqa məscidlərdə qılınan namazlardan beş yüz dəfə daha xeyirlidir.

[18] əl-Buxari, 1189.

[19] əl-Buxari, 1190.

*Şəkil 11* Peyğəmbər ﷺ məscidi



## Peyğəmbərin ﷺ və onun iki səhabəsi Əbu Bəkr və Ömərin رضي الله عنهما qəbirləri necə ziyarət edilir?

Peyğəmbər ﷺ məscidində namaz qıldıqdan sonra Peyğəmbərin ﷺ və onun iki səhabəsi Əbu Bəkr və Ömərin رضي الله عنهما qəbirləri olan yerə[20] gedib əvvəlcə Peyğəmbərin ﷺ qəbrinin qarşısında dayanır (Peyğəmbərin ﷺ qəbri sol tərəfdən birincidir) və ona salam verərək belə deyir:

اَلسَّلَامُ عَلَيْكَ يَا رَسُولَ ٱللَّهِ وَرَحْمَةُ ٱللَّهِ وَبَرَكَاتُهُ

[Əssələ:mu aleykə yə Rasu:ləllah və rahmətullahi və bərakə:tuhu]

**"Ey Allahın Elçisi! Sənə Allahın salamı, rəhməti və bərəkəti olsun!"**

Əlavə olaraq bu duanı da deyə bilər:

صَلَّى ٱللَّهِ وَسَلَّمَ عَلَيْكَ وَعَلَى آلِكَ وَأَصْحَابِكَ، وَجَزَاكَ ٱللَّهِ عَنْ أُمَّتِكَ خَيْرًا، اَللَّهُمَّ آتِهِ الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ الْمَقَامَ الْمَحْمُودَ الَّذِي وَعَدْتَهُ

[20] Peyğəmbər ﷺ və onun iki səhabəsi Əbu Bəkr və Ömər رضي الله عنهما Peyğəmbərin ﷺ evində dəfn olunmuşlar. Peyğəmbərlər vəfat etdikləri yerdə dəfn olunduqları üçün Peyğəmbər ﷺ vəfat etdiyi yerdə, yəni zövcəsi Aişənin رضي الله عنها hücrəsində dəfn olundu. Aişənin رضي الله عنها hücrəsi məscidin yanında yerləşirdi. Peyğəmbər ﷺ vəfat etdikdən bir neçə il (iki il üç ay) sonra Əbu Bəkr رضي الله عنه vəfat etdi və onu da Peyğəmbərin ﷺ evində onun yanında dəfn etdilər. Əbu Bəkr رضي الله عنه vəfat etdikdən sonra (təqribən on il sonra) Ömər رضي الله عنه vəfat etdi və onu da onların yanında dəfn etdilər. Daha sonra Peyğəmbərin ﷺ məscidi genişləndi və Peyğəmbərin ﷺ və onun iki sevimli səhabəsinin رضي الله عنهما dəfn olunduğu ev məscidin qarşı tərəfdən kənarına düşdü. Bununla da aydın olur ki, Peyğəmbər ﷺ və onun iki səhabəsi Əbu Bəkr və Ömər رضي الله عنهما heç də məscidin içərisində dəfn olunmamışlar.

[Salləllahu aleykə və alə Ə:likə və əshə:bikə, və cəzə:kəll:ahu ən ummətikə xayran. Alla:hummə ə:tihil-vəsi:lətə vəl-fədi:lətə vəb-əshul-məqa:məl-məhmu:dəl-ləzi vəadtəhu]

**“Sənə, ailənə və səhabələrinə Allahın salavatı və salamı olsun! Ümmətinə görə Allah səni xeyirlə mükafatlandırsın! Allahım! Ona vasitəçilik haqqı və fəzilət ver! Onu vəd etdiyin təriflənən məqama çatdır!”**

Peyğəmbərə ﷺ salam verdikdən sonra bir az sağ tərəfə keçib Əbu Bəkrə ؓ salam verərək belə deyir:

اَلسَّلَامُ عَلَيْكَ يَا أَبَا بَكْرٍ وَرَحْمَةُ ٱللَّهِ وَبَرَكَاتُهُ رَضِيَ ٱللَّهِ عَنْكَ، وَجَزَاكَ عَنْ أُمَّةِ مُحَمَّدٍ خَيْرًا،

[Əssələ:mu aleykə yə Əbə Bəkr və Radiyəlla:hu və bərakə:tuhu. rahmətulla:hiankə və cəzə:kə ən ümməti Muhəmmədin xayran]

**“Ey Əbu Bəkr! Sənə Allahın salamı, rəhməti və bərəkəti olsun! Allah səndən razı olsun və Muhəmmədin ümmətinə (göstərdiyin xidmətlərə) görə səni xeyirlə mükafatlandırsın!”**

Sonra bir az da sağ tərəfə keçib Ömərə ؓ eyni şəkildə salam verərək belə deyir:

اَلسَّلَامُ عَلَيْكَ يَا عُمَرُ وَرَحْمَةُ ٱللَّهِ وَبَرَكَاتُهُ رَضِيَ ٱللَّهُ عَنْكَ، وَجَزَاكَ عَنْ أُمَّةِ مُحَمَّدٍ خَيْرًا،

[Əssələ:mu aleykə yə Umər və rahmətulla:hi və bərakə:tuhu. Radiyəlla:hu ankə və cəzə:kə ən umməti Muhəmmədin xayran]

**"Ey Ömər! Sənə Allahın salamı, rəhməti və bərəkəti olsun! Allah səndən razı olsun və Muhəmmədin ümmətinə (göstərdiyin xidmətlərə) görə səni xeyirlə mükafatlandırsın!"**

## "Rovda əş-Şərifə"də namaz qılmaq

"Rovda əş-Şərifə" – Peyğəmbərin ﷺ evi ilə (xütbə verdiyi) minbəri arasında olan yerin adıdır. "Rovda" sözünün mənası "bağça" deməkdir. Əbu Hureyra ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mənim evimlə minbərim arasında yerləşən yer Cənnət bağlarından bir bağçadır".[21] Alimlər bu hədisin şərhində demişlər: "Yəni, bu yerdə ibadət etmək, namaz qılıb Allahı zikr etmək Cənnətə düşməyə səbəblərdən biridir". Peyğəmbərin ﷺ evi ilə (xütbə verdiyi) minbəri arasında olan yer yaşıl xalı ilə digər yerlərdən fərqləndirilmişdir. Peyğəmbərin ﷺ məscidinə gələn zəvvarın imkan daxilində bu yerdə çox sayda nafilə namazları qılması müstəhəbdir. **(Şəkil 12)**

[21] əl-Buxari, 1195; Muslim, 2464, 3435.

*Şəkil 12 Rovda əş-Şərifə*



*Şəkil 13 "Quba" məscidi*



## "Quba" məscidi

Mədinədə ziyarət edilməsi müstəhəb olan ikinci məscid "Quba" məscididir. **(Şəkil 13)** "Quba" məscidi İslamda tikilən ilk məsciddir. Bu məsciddə namaz qılmağın fəziləti barədə Peyğəmbər ﷺ belə demişdir: "Hər kim evində təmizlənib (dəstəmaz alıb) sonra "Quba" məscidinə gələr və orada namaz qılarsa, bu ona ümrə ziyarətinin savabını qazandırar".[22] Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Allah Elçisi ﷺ hər şənbə günü piyada və ya minikdə "Quba" məscidinə gələr və orada iki rükət namaz qılardı.[23]

**Qeyd:** Hədislərdə Mədinədəki məscidlərdən bu iki məsciddən (Peyğəmbər ﷺ məscidi və "Quba" məscidi) başqa hər hansı bir məscidin fəziləti barədə bir dəlil gəlməmişdir.

[22] İbn Macə, 1412.
[23] əl-Buxari, 1117, 1191; Muslim, 2479, 3456.

*Şəkil 14: Bəqi qəbiristanlığı*



# Bəqi qəbiristanlığını və Uhud döyüşündə şəhid olanların dəfn olunduğu qəbiristanlığı ziyarət etmək

Qəbiristanlığı şəriətin buyurduğu qaydada ziyarət etmək dinimizdə bəyənilən əməllərdən sayılır. Belə ki, qəbirləri ziyarət etməyin Axirəti yada salmaq, ibrət almaq və vəfat edənlər üçün dua edib Allahdan bağışlanma diləmək kimi faydaları var. Əbu Səid əl-Xudri ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: "Mən sizə (İslamın əvvəlində) qəbirləri ziyarət etməyi qadağan etmişdim.[24] Amma indi icazə verirəm, onları ziyarət edin! Həqiqətən, bunda bir

[24] İslamın əvvəlində qəbirləri ziyarət etməyin qadağan edilməsinin səbəbi səhabələrin imanda təzə olmaları idi. Belə ki, bəşəriyyət tarixində ilk şirk əməl (Allaha şərik qoşmaq) məhz qəbirlər vasitəsilə baş vermişdir. Səhabələrin qəlbində iman bərqərar olduqdan sonra Peyğəmbər ﷺ onlara qəbirləri ziyarət etməyə icazə verdi və bunun faydasını bildirdi.

ibrət dərsi vardır. Amma orada Uca Allahı qəzəbləndirən ifadələr işlətməyin”.[25] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Mən sizə qəbirləri ziyarət etməyi qadağan etmişdim, indi isə onları ziyarət edin, çünki bu, qəlbləri yumşaldır, gözləri yaşardır və axirəti yada salır (ölümü xatırladır). Lakin orada artıq-əskik söz danışmayın”.[26] Peyğəmbərin ﷺ dövründən başlayaraq günümüzə kimi Bəqi qəbiristanlığında müsəlmanlar dəfn olunurlar. **(Şəkil 14)** Qəbiristanlığı ziyarət edərkən bu duanı demək müstəhəbdir:

**اَلسَّلَامُ عَلَيكُمْ أَهْلَ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ، وإِنَّا إِنْ شَاءَ ٱللَّهُ بِكُمْ لاَحِقُونَ [وَيَرْحَمُ ٱللَّهُ الْمُسْتَقْدِمِينَ مِنَّا وَالْمُسْتَأْخِرِينَ] نَسأَلُ ٱللَّهُ لَنَا وَلَكُمُ العَافِيَةَ**

[əs-sələ:mu aleykum əhləd-diyə:ri minəl-mumini:nə vəl-muslimi:n va innə in şə:Allahu bikum lə:hiqu:nə [va yərhəmulla:hul-mustəqdimi:nə minnə val-mustəxiri:n] Nəsəlu-l-lahə lənə və ləkumul-a:fiyətə]

**“Sizə salam olsun, ey möminlər və müsəlmanlar diyarının əhli! Allah istədiyi zaman, biz də sizə qoşulacağıq. [Əvvəlkilərə və onlardan sonra vəfat edənlərə Allahın mərhəməti olsun]. Allahdan özümüzə və sizə salamatlıq diləyirik”.[27]**

[25] əl-Hakim, 1393. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 4584.
[26] əl-Hakim, 1394. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 2474.
[27] Muslim, 1619, 2301; İbn Məcə, 1547. Hədis səhihdir. Bax: Mişkətul-Məsabih, 1764.

Daha sonra vəfat edən müsəlmanlar üçün dua etmək, Allahdan onlar üçün bağışlanma diləmək müstəhəbdir.

**Qeyd:** Uhud şəhidlərinin dəfn olunduğu qəbiristanlıq da eyni şəkildə ziyarət edilir.

## Dua və Zikrlər

Məscidə daxil olarkən və məsciddən çıxarkən edilən dua

Məscidə daxil olarkən bu duanı deyən adam barədə şeytan: “Bu gün o məndən qorundu”– deyər.

أَعُوذُ بِاللَّهِ الْعَظِيمِ، وَبِوَجْهِهِ الْكَرِيمِ، وَسُلْطَانِهِ الْقَدِيمِ، مِنَ الشَّيْطَانِ الرَّجِيمِ [بِسْمِ ٱللَّهِ، وَالصَّلَاةُ]

[وَالسَّلَامُ عَلَى رَسُولِ ٱللَّهِ] ٱللَّهُمَّ افْتَحْ لِي أَبْوَابَ رَحْمَتِكَ

[Əu:zu billə:hil-azi:m və bivəchihil-kəri:m və sulta:nihil-qadi:m minəş-şeyta:nir-raci:m. [Bismilləh, vas-salə:tu] [vas-salə:mu alə: Rasu:lilləh] Alla:humməftəh li: əbva:bə rahmətik].

**“Məlun [Allahın rəhmətindən qovulmuş, lənətə gəlmiş] şeytandan Böyük Allaha, Onun kəramətli Üzünə və əzəli hökmünə sığınıram.[28] [Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə!][29] Allahım! Öz mərhəmət qapılarını mənim üçün aç!”[30]**

Çıxarkən isə belə deyir:

بِسْمِ اللَّهِ وَالصَّلَاةُ وَالسَّلَامُ عَلَى رَسُولِ اللَّهِ، اللَّهُمَّ إِنِّي أَسْأَلُكَ مِنْ فَضْلِكَ، ٱللَّهُمَّ اعْصِمْنِي مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

[28] Əbu Davud, 466. Bax: Səhih ət-Tərğib vət-Tərhib, 1606.
[29] İbn Məcə, 771.
[30] Muslim, 1165, 1685.

[Bismilləh, vəs-salə:tu vəs-salə:mu alə
Rasu:lilləh! Alla:hummə, inni əs əlukə min fadlik!
Alla:hummə’sımni minəş-şeyta:nir-raci:m!]

**“Allahın adı ilə! Salavat və salam olsun Allahın elçisinə! Allahım, Sənin lütfündən diləyirəm! Allahım, məni daşqalaq olunmuş (lənətə gəlmiş) şeytandan qoru!”[31]**

[31] İbn Məcə, 773. Hədis səhihdir. Bax: Səhih əl-Cami, 514.

## Quranda keçən bəzi müstəcəb dualar

﴿رَبَّنَا ظَلَمْنَآ أَنفُسَنَا وَإِن لَّمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ ٱلْخَـٰسِرِينَ﴾

**1.** [Rabbənə zaləmnə ənfusənə: və il-ləm təğfir lənə və tərhəmnə lənəku:nənnə minəl- xa:siri:n]

**"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq"** *(əl-Əraf, 23).*

﴿رَّبِّ ٱغْفِرْ لِى وَلِوَٰلِدَىَّ وَلِمَن دَخَلَ بَيْتِىَ مُؤْمِنًا وَلِلْمُؤْمِنِينَ وَٱلْمُؤْمِنَـٰتِ ۖ وَلَا تَزِدِ ٱلظَّـٰلِمِينَ إِلَّا تَبَارًۢا﴾

**2.** [Rabbi-ğfirli və liva:lideyyə və limən dəxalə beytiyə mu'minən və lil-mu'mini:nə val-mu'minə:t və lə təzidiz-za:limi:nə illə təbə:ra]

**"Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır"** *(Nuh, 28).*

﴿رَبَّنَا تَقَبَّلْ مِنَّآ ۖ إِنَّكَ أَنتَ ٱلسَّمِيعُ ٱلْعَلِيمُ﴾

**3.** [Rabbənə təqabbəl minnə, innəkə əntə-səmi:ul-ali:m]

**"Ey Rəbbimiz! (Bu xeyirli işi) məndən qəbul et, sən doğrudan da, (hər şeyi) Eşidən və Bilənsən"** *(əl-Bəqərə, 127).*

﴿وَتُبْ عَلَيْنَآ ۖ إِنَّكَ أَنتَ ٱلتَّوَّابُ ٱلرَّحِيمُ﴾

**4.** [Və tub aleynə, innəkə əntət-təvvə:bur-rahi:m]

**“Tövbəmizi qəbul et! Həqiqətən Sən tövbələri qəbul edənsən, Rəhmlisən”** *(əl-Bəqərə, 128).*

﴿ رَبِّ ٱجْعَلْنِى مُقِيمَ ٱلصَّلَوٰةِ وَمِن ذُرِّيَّتِى ۚ رَبَّنَا وَتَقَبَّلْ دُعَآءِ ﴾

**5.** [Rabbi-c’alni muqi:məs-salə:ti və min zurriyəti. Rabbə:nə və təqabbəl dua:]

**“Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılanlardan et. Ey Rəbbim, duamı qəbul buyur!”** *(İbrahim, 40).*

﴿ رَبَّنَا ٱغْفِرْ لِى وَلِوَٰلِدَىَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ ٱلْحِسَابُ ﴾

**6.** [Rabbənəğ-firli va liva:lideyyə və lil-mu’mini:nə yəvmə yəqu:mul-hisə:b]

**“Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!”** *(İbrahim, 41).*

﴿ رَبِّ هَبْ لِى مِنَ ٱلصَّٰلِحِينَ ﴾

**7.** [Rabbi həb li minəs-sa:lihi:n]

**“Ey Rəbim! Mənə salehlərdən olan bir övlad bəxş et!”** *(əs-Saffat, 100).*

﴿ رَبِّ أَوْزِعْنِىٓ أَنْ أَشْكُرَ نِعْمَتَكَ ٱلَّتِىٓ أَنْعَمْتَ عَلَىَّ وَعَلَىٰ وَٰلِدَىَّ وَأَنْ أَعْمَلَ صَٰلِحًا
تَرْضَىٰهُ وَأَدْخِلْنِى بِرَحْمَتِكَ فِى عِبَادِكَ ٱلصَّٰلِحِينَ ﴾

**8.** [Rabbi əvzi’ni ən əşkura ni’mətəkəl-ləti ən’amtə

aleyyə və alə va:lideyyə və ən ə'mələ sa:lihən tərda:hu və ədxilni birahmətikə fi: ibə:dikəs-sa:lihi:n]

**"Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməli etmək üçün ilham ver və məni Öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!"** *(ən-Nəml, 19).*

﴿ رَبِّ هَبْ لِى مِن لَّدُنكَ ذُرِّيَّةً طَيِّبَةً ۖ إِنَّكَ سَمِيعُ ٱلدُّعَآءِ ﴾

**9.** [Rabbi həb li min lədunkə zurriyyətən tayyibə, innəkə səmi:ud-dua]

**"Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları eşidənsən!"** *(Ali-İmran, 38)*.

﴿ لَّآ إِلَٰهَ إِلَّآ أَنتَ سُبْحَٰنَكَ إِنِّى كُنتُ مِنَ ٱلظَّٰلِمِينَ ﴾

**10.** [Lə ilə:hə illə əntə subhə:nəkə inni kuntu minəz-za:limi:n]

**"Səndən başqa ibadətə layiq olan heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!"** *(əl-Ənbiya, 87)*.

﴿ رَبَّنَا ٱغۡفِرۡ لَنَا ذُنُوبَنَا وَإِسۡرَافَنَا فِيٓ أَمۡرِنَا وَثَبِّتۡ أَقۡدَامَنَا وَٱنصُرۡنَا عَلَى ٱلۡقَوۡمِ ٱلۡكَٰفِرِينَ ﴾

**11.** [Rabbənə-ğfirlənə zunu:bənə va isra:fənə fi: əmrinə və səbbit əqdə:mənə vən-surnə aləl-qavmil-kə:firi:n]

**"Ey Rəbbimiz! Günahlarımıza və işlərimizdə həddimizi aşdığımıza görə bizi bağışla, qədəmlərimizi möhkəmləndir və kafirlərə qələbə çalmaqda bizə kömək et!"** *(Ali-İmran, 147).*

﴿ رَّبِّ زِدۡنِي عِلۡمٗا ﴾

**12.** [Rabbi zidni ilmən]

**"Ey Rəbbim! Mənim elmimi artır!"** *(Ta ha, 114).*

﴿ رَّبِّ أَعُوذُ بِكَ مِنۡ هَمَزَٰتِ ٱلشَّيَٰطِينِ ٩٧ وَأَعُوذُ بِكَ رَبِّ أَن يَحۡضُرُونِ ﴾

**13.** [Rabbi əu:zu bikə min həməzə:tiş-şəyə:ti:n və əu:zu bikə rabbi ən yəhduru:n]

**"Ey Rəbbim! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların yanımda olmalarından Sənə pənah aparıram, ey Rəbbim!"** *(əl-Muminun, 97-98).*

﴿ رَّبِّ ٱغۡفِرۡ وَٱرۡحَمۡ وَأَنتَ خَيۡرُ ٱلرَّٰحِمِينَ ﴾

**14.** [Rabbi-ğfir varhəm və əntə xayrur-ra:himi:n]

**"Ey Rəbbim! Bağışla və rəhm et! Sən rəhm edənlərin ən yaxşısısan"** *(əl-Muminun, 118).*

﴿ رَبَّنَآ ءَاتِنَا فِي ٱلدُّنۡيَا حَسَنَةٗ وَفِي ٱلۡأٓخِرَةِ حَسَنَةٗ وَقِنَا عَذَابَ ٱلنَّارِ ﴾

**15.** [Rabbənə ə:tinə fid-dunyə həsənətən və fil ə:xirati həsənətən və qinə: azə:bən-nə:r]

**"Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də Axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!"** *(əl-Bəqərə, 201).*

﴿ رَبَّنَا لَا تُزِغۡ قُلُوبَنَا بَعۡدَ إِذۡ هَدَيۡتَنَا وَهَبۡ لَنَا مِن لَّدُنكَ رَحۡمَةًۚ إِنَّكَ أَنتَ ٱلۡوَهَّابُ ﴾

**16.** [Rabbənə lə: tuziğ qulu:bənə bə’də iz hədəytənə və həb lənə: lədunkə rahmətən, innəkə əntəl-vahhə:b]

**"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma. Bizə Öz tərəfindən bir mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən"** *(Ali-İmran, 8).*

﴿ رَبَّنَا هَبۡ لَنَا مِنۡ أَزۡوَٰجِنَا وَذُرِّيَّٰتِنَا قُرَّةَ أَعۡيُنٖ وَٱجۡعَلۡنَا لِلۡمُتَّقِينَ إِمَامًا ﴾

**17.** [Rabbənə həb lənə min əzvə:cinə və zurriyyə:tinə: qurratə ə’yunin vac’alnə lil-muttəqi:nə imə:mə]

**"Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!"** *(əl-Furqan, 74).*

﴿ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ وَلَا تَجۡعَلۡ فِي قُلُوبِنَا غِلّٗا لِّلَّذِينَ ءَامَنُواْ رَبَّنَآ إِنَّكَ رَءُوفٞ رَّحِيمٌ ﴾

**18.** [Rabbənə-ğfirlənə və li ixvə:ninəl-ləzi:nə səbəqu:nə bil-i:mə:n və lə təc’əl fi: qulu:binə ğillən lil-ləzi:nə ə:mənu: rabbənə innəkə rau:fur-rahi:m]

**“Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!”** *(əl-Həşr, 10).*

## Səhih hədislərdə keçən bəzi müstəcəb dualar

اَللَّهُمَّ أَكْثِرْ مَالِي، وَوَلَدِي، وَبَارِكْ لِي فِيمَا أَعْطَيْتَنِي، وَأَطِلْ حَيَاتِي عَلَى طَاعَتِكَ، وَأَحْسِنْ عَمَلِي، وَاغْفِرْ لِي

**19.** [Alla:hummə əksir mə:li və vələdi və bə:rik li fi:mə ə'taytəni və ətil həyə:ti alə ta:ətikə və əhsin aməli vağfir li]

**"Allahım! Malımı, övladımı artır və mənə verdiklərinə bərəkət ver! Ömrümü Sənə itaətdə uzat! Əməllərimi yaxşılaşdır və məni bağışla!"**[32]

اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ فِتْنَةِ النَّارِ وَعَذَابِ النَّارِ، وَفِتْنَةِ الْقَبْرِ، وَعَذَابِ الْقَبْرِ، وَشَرِّ فِتْنَةِ الْغِنَى، وَشَرِّ فِتْنَةِ الْفَقْرِ، اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ شَرِّ فِتْنَةِ الْمَسِيحِ الدَّجَّالِ، اَللَّهُمَّ اغْسِلْ قَلْبِي بِمَاءِ الثَّلْجِ وَالْبَرَدِ، وَنَقِّ قَلْبِي مِنَ الْخَطَايَا كَمَا نَقَّيْتَ الثَّوْبَ الْأَبْيَضَ مِنَ الدَّنَسِ، وَبَاعِدْ بَيْنِي وَبَيْنَ خَطَايَايَ كَمَا بَاعَدْتَ بَيْنَ الْمَشْرِقِ وَالْمَغْرِبِ. اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْكَسَلِ وَالْمَأْثَمِ وَالْمَغْرَمِ

**20.** [Alla:hummə inni əu:zu bikə min fitnətin-nə:ri və azə:bin-nə:r və fitnətil-qabri və azə:bil-qabri və şərri fitnətil-ğinə və şərri fitnətil-fəqr. Alla:hummə inni əu:zu bikə min şərri fitnətil-məsi:hid-dəccə:l. Alla:hummə-ğsil qalbi bil-mə:is-səlci val-bəradi və nəqqi qalbi minəl-xata:yə kəmə nəqqaytəs-səubəl-əbyəda minəd-dənəsi

[32] əl-Buxari, 5859, 6344; Muslim, 1055, 1533. Peyğəmbər ﷺ bu duanı Ənəs ؓ üçün etmişdir.

və bə:id beyni və beynə xata:yə:yə kəmə bə:adtə beynəl-məşriqi val-məğrib. Alla:hummə inni əu:zu bikə minəl-kəsəli val-mə’səmi val-məğrami]

**“Allahım! Cəhənnəm və qəbir əzabından, onların fitnəsindən, həmçinin var-dövlət və kasıbçılıq fitnəsinin şərindən Sənə sığınıram! Allahım, yalançı Məsihin fitnəsinin şərindən sənə sığınıram. Allahım, qəlbimi su, qar və buz ilə ağ paltarın çirkdən təmizləndiyi kimi xətalardan təmizlə və onları məndən məşriqi məğribdən uzaq etdiyin kimi uzaq et! Allahım, tənbəllikdən, günahlardan və borclu olmaqdan sənə sığınıram!”**[33]

اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنَ الْعَجْزِ، وَالْكَسَلِ، وَالْجُبْنِ، وَالْهَرَمِ، والْبُخْلِ، وَأَعُوذُ بِكَ مِنْ عَذَابِ الْقَبْرِ، وَمِنْ فِتْنَةِ الْمَحْيَا وَالْمَمَاتِ

**21.** [Alla:hummmə inni əu:zu bikə minəl-aczi val-kəsəli val-cubni val-hərami val-buxli və əu:zu bikə min azə:bil-qabri və min fitnətil-məhyə val-məmə:t]

**“Allahım! Acizlik, tənbllik, qorxaqlıq, qocalıq və paxıllıqdan sənə sığınıram. Həmçinin qəbir əzabından, ölümün və həyatın fitnəsindən Sənə sığınıram!“**[34]

[33] əl-Buxari, 5900, 6377.
[34] əl-Buxari, 5890, 6367.

اَللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ جَهْدِ الْبَلَاءِ، وَدَرَكِ الشَّقَاءِ، وَسُوءِ الْقَضَاءِ، وَشَمَاتَةِ الْأَعْدَاءِ

**22.** [Alla:hummə inni əu:zu bikə min cəhdil-bələ:i və dərakiş-şəqa:i və su:il-qada:i və şəmə:tətil-əa'də:i] "Allahım! Bəla məşəqqətindən, bədbəxtçilikdən, pis taledən və düşmənlərin bədxahlığından sənə sığınıram!"[35]

اللَّهُمَّ إِنِّي أَعوذُ بِكَ مِنَ الجُبْنِ، وَأَعُوذُ بِكَ مِنَ البُخْلِ، وَأَعُوذُ بِكَ مِنْ أَنْ أُرَدَّ إِلَى أَرْذَلِ العُمُرِ، وَأَعُوذُ بِكَ مِنْ فِتْنَةِ الدُّنْيَا وَعَذَابِ القَبْرِ

**23.** [Alla:hummə inni əu:zu bikə minəl-cubni və əu:zu bikə minəl-buxli və əu:zu bikə min ən uraddə ilə ərzəlil-umuri və əu:zu bikə min fitnətid-dunyə və az:əbil-qabri]

**"Allahım, paxıllıqdan, qorxaqlıqdan, ən rəzil ömürə qayıtmağımdan, dünyanın (yəni yalançı Məsihin) və qəbir əzabının fitnəsindən Sənə sığınıram"[36]**

[35] əl-Buxari, 6126, 6347.
[36] əl-Buxari, 5888, 6365.

اللَّهُمَّ اغْفِرْ لِي خَطِيئَتِي، وَجَهْلِي، وَإِسْرَافِي فِي أَمْرِي، وَمَا أَنْتَ أَعْلَمُ بِهِ مِنِّي، اللَّهُمَّ اغْفِرْ لِي هَزْلِي، وَجِدِّي، وَخَطَئِي، وَعَمْدِي، وَكُلُّ ذَلِكَ عِنْدِي

**24.** [Alla:hummə-ğfirli xati:əti və cəhli və isra:fi fi əmri və mə əntə ə'ləmu bihi minni. Alla:hummə-ğfirli həzli və cəddi və xatai və amdi və kullu zə:likə indi]

**"Allahım! Günahımı, cahilliyimi, etdiyim israfı, Sənin məndən daha yaxşı bildiyin, mənim isə unutduğum günahları bağışla! Allahım, zarafatla, ciddi, bilməyərək və biləreкdən etdiyim səhflərə görə məni bağışla! Bunların hamısının məndə olması mümkündür!"**[37]

